**Yasin Türksoy**

**Nədən başlamalı?**

Hər bir şeyin başlanğıcı var, nədənsə başlayır, toxumdan, rüşeymdən, hüceyrədən... İnsanlığın da başlanğıcı var – Özündən.

Xalqın özünün öz dəyər sistemləri olur, əgər onu qoruyub-saxlaya bilmirsə, Özgəninkinə calaq edirsə, öz doğrularından qaçıb Yadların yalanlarını doğru bilirsə, özgə dəyərsizliyini milli dəyər ölçülərinədək ucaldırsa, o xalq milli duyğulardan uzaqdır.

Bu qeyri-kamillikdə öz milli kimliyini düşünüb qoruyan milyonda bir kamillər də olur, Atalıq edir, yol göstərir, yön verir, özümləşdirir – Asif Ata kimi. Gəlişi özünə gün ağlamaq üçün deyildi, Atalıq etmək üçün idi.

***

**Asif Ata yolu – İnsanlıq yolu, İnsanlaşmaq yolu.**

O, aradı, araşdırdı və dünyanı özündə tapdı – İnsanda. Əskilərdən çağdaş zamanadək İnsanı özündən ayıran dinləri rədd etdi. Bu dinlər qədim "Firona itaət"in yeni biçimləridir. İnsanlığa layiq olmayan dinlərin hamısı bir kənara qoyulası köhnəliklərdir.

**İnamla Xəlqiliyin, Bəşəriliyin Vəhdəti.**

Qafil, Cahil, Nadan, Bixəbər məxluqlar **İnam Peyğəmbəri**nə özü dediyi kimi "Adamyeyəndən başqa hər şey dedilər".

***

Sokratın deyimindən: "Sənin qəbahətlərini sənin özünə deyən düşmən bunları gizlədən dostdan yaxşıdır". "Bunları gizlədən dost" ifadəsi artıq sadə düşmənçilikdən daha çox ağıllı düşmənçilikdir, bu isə daha təhlükəlidir. Düşmən üzə gülər, xoş üz göstərər, şirindillik edər, tərifləyər, həvəsləndirər... məqsədinə çatar. Atanın Yolundan xəbərsiz olan indiki dünyanın halı budur.

***

**Atadan yarpaqlar**

– Vətən üçün yaşamaq, Vətən üçün ölməkdən çətindir.

***

– Övlad olmaq, Ata olmaq Allah olmaq kimi bir işdir.
Bunu anlamaq xoşbəxtlikdir.

***

– İnsan mahiyyətcə dünyadan üstündür.

***

– Vətəni müqəddəsləşdirən, ucaldan insandır.

***

– Xalq haqqında bilik vermək deyil, xalqa İnam vermək gərəkdir.

Bu sözlər Xalqa və ümumilikdə Bəşəriyyətə yad olanın söyləmləri ola bilərmi?!
Hər bir kəlam bəşəri məna gücündədir.

***

**Qurtuluş... Nicat işığı**

“Demokratiya tərəfdarı” oyunları , “Demokratiya qarantı” nagılları, “İnsan azadlıqları” tamaşaları, dünyanın tülkü əməlli və İblis siyasətli diplomatiyaları, politologiyaları... – İnsanı özündən ayırma üsullarının hər yoluna əl atıblar. Çıxış yolu İnsanlığa və Bəşəriyyətə layiq öz dəyərlərimiz ruhunda köklənmiş “Ata işığı” əsasında Onun Ocağında birləşməkdir.

Bu birlik kolonist proletar birəşməsi deyil, **Mütləqə İnam, Kamil İnsan, Xəlqi Birlik, Müstəqil Vətən, Özümlü Şərq, Ləyaqətli Bəşər əsasında birlik**dir. Özümüz özümüzlə birləşmədikcə Vətənimizə sevgimizdəki Bütövlük, İnsani münasibətlərimizdəki Böyüklük vicdanımızı tərk edəcək.

Atanın İnsana gərək olan təməl prinsiplərindən belə hal doğur: **İnsana İnam, Vətənə Sədaqət, Gələcəyə nikbin baxış...**

“Dünya bizdə özüdür, özündə özgə” deyir, ulumuz Asif Ata.

Ona görə də Dünyanı öz ixtiyarına qoymaq yox, onu dəyişmək lazımdır...

Atamız var olsun!